# Cəbrayıl sakinləri: Ali Baş Komandanın bu böyük xidmətini həyatımız boyu yaddan çıxarmayacağıq!



***Azərbaycan xalqı öz tarixinin ən şərəfli günlərini yaşayır. Oktyabrın 4-də Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərək Cəbrayıl şəhəri və rayonun doqquz kəndinin işğaldan azad edilməsi münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik etmişdir. Dövlətimizin başçısı Cəbrayıl rayonunun və işğal olunmuş digər ərazilərin azad edilməsində fəal iştirak etmiş bütün əsgər və zabitlərimizə təşəkkür etmişdir. Cənab Prezident demişdir: "Bilirsiniz, bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır."***



Bu gün bütün Azərbaycan xalqı, o cümlədən cəbrayıllılar, əlbəttə, böyük sevinc içindədirlər. Onlar tezliklə uzun illər həsrətində olduqları doğma yurd yerlərinə qayıda biləcəklər. Əməkdaşımız Cəbrayıl rayonunun sakinləri ilə görüşüb onların bu tarixi hadisə barədə fikir və düşüncələrini qələmə almışdır.

***Hacı Əliyyənağı Zamanov***
***Cəbrayıllı rayonu, Hovuslu kənd sakini:***

– Mən indi həyatımın ən xoşbəxt günlərini yaşayıram. Doğma Cəbrayılım yağı düşməndən azad edilmişdir. Bu günü görmək, bu sonsuz sevinc hisslərini yaşamaq ən böyük arzum idi!

Bu böyük sevinci cəbrayıllılara, bütün xalqımıza bəxş edən göydə uca Allahıma, yerdə möhtərəm Prezidentim cənab İlham Əliyevə, xalqımızın bütün igid, qəhrəman əsgər və zabitlərinə ürəkdən təşəkkür edirəm.

Bəli, 27 ildir ki, bu günü gözləyirdim. Sevincimi sözlə ifadə etmək çox çətindir. İndi biz cəbrayıllıların yeganə arzusu doğma ata ocaqlarımıza mümkün qədər tez qayıtmaq, orada yenidən qurub-yaratmaq, iman və inanc yerlərimizi, pirlərimizi, məscidlərimizi bərpa etməkdir.

Mən əminəm ki, möhtərəm Prezidentimiz İlham Əliyevin, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaxından köməyi ilə işğaldan azad edilmiş Cəbrayıl rayonunda, külli Qarabağda tezliklə həyat öz axarına düşəcək, xalqımız yenidən xoşbəxt, firavan həyat sürəcəkdir.

***Qərib ƏSƏDOV,***
***Quycaq kənd sakini, şəhid atası:***

– Mən 1992-ci ildə Cəbrayılın Hadrutla sərhədində yerləşən kəndlərində qəhrəmancasına şəhid olmuş tələbə-döyüşçü Fuad Əsədovun atasıyam. Bunu ona görə deyirəm ki, indi təkcə mən xoşbəxt deyiləm, şəhid balamın da ruhu şaddır.

Mənim Fuadımın, bütün şəhidlərimizin ruhunu sevindirən Azərbaycan Ordusuna, Ali Baş Komandan İlham Əliyevə eşq olsun!

Əminəm ki, bütün torpaqlarımız düşməndən azad ediləcək. Oğlumun məzarı Quycaq kəndindədir. Həyat yoldaşım Solmaz xanımla oranı ziyarət eməyə can atırıq. Oğlum şəhid olandan ötən 28 il ərzində ilk dəfədir ailəmiz belə ürəkdən sevinir. Allah xalqımızı, sevimli Prezidentimizi, onun doğmalarını sevindirsin!

Ali Baş Komandan İlham Əliyev, yenilməz Milli Ordumuz bu gün Qarabağda mənfur düşməndən bütün xalqımızın qisasını alır. Bir daha qəlbimdən dilimə axan sözləri ucadan deyirəm: Mən möhtərəm Prezidentimlə fəxr edirəm! Allah onu qorusun!

***Arif MƏHİDOV,***
***Daş Veysəlli kənd sakini:***

– Bu il oktyabrın 4-də Azərbaycan Prezidenti möhtərəm İlham Əliyevin xalqa müraciətini televiziyadan dinləyəndə son dərəcə böyük qürur və fərəh hissi keçirdim. Cənab Prezident biz cəbrayıllıları Cəbrayıl şəhərinin və rayonun doqquz kəndinin işğaldan azad edilməsi münasibəti ilə xüsusi təbrik etdi.

Cəbrayıllılar Ali Baş Komandanın bu böyük yaxşılığını heç vaxt unutmayacaqlar. İnsanın tam xoşbəxtliyi onun şərəfli ölkənin vətəndaşı olduğu zaman mümkün olur. Azərbaycan xalqı şərəflə yaşamağı hər şeydən üstün tutan xalqdır. Bizim üçün ən böyük dəyər şərəf və ləyaqətdir!

Mən əminəm ki, Ali Baş Komandanın başçılığı ilə Qarabağda işğal altında olan digər rayon və kəndlərimiz ən yaxın günlərdə yağı düşməndən azad ediləcək. Çünki haqq, ədalət bizim tərəfimizdədir.

***Məhəmmədəli Şükralıyev,***
***Böyük Mərcanlı kənd sakini:***

– Doğma Cəbrayılım yağı düşməndən azad olunub. İnsan üçün bundan böyük səadət, xoşbəxtlik ola bilərmi? Əlbəttə, yox!

Mən uzun illərdir tarix fənnindən dərs deyirəm. Hər zaman şagirdlərimə xalqımızın şanlı tarixini yaxından tanıdıb sevdirməyə çalışmışam.

Son günlər xüsusilə çox sevinirəm. Ona görə sevinirəm ki, Azərbaycan Ordusu Qarabağda tarix yazır. Bu günlər bizim tariximizin ən parlaq səhifələridir.

Cəbrayılın azad olunmasında iştirakı olan hər kəsin qarşısında baş əyirəm. Müstəqil dövlətimlə, möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevlə sonsuz qürur duyuram! Azərbaycanın parlaq gələcəyinə ürəkdən inanıram. Xalqımıza, dövlətimizə eşq olsun!

***Söhbəti qələmə aldı:***
***Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***